UOT 37.0

***Firədun Nadir oğlu İbrahimov,***
*pedaqogika üzrə elmlər doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının professoru*

***Gülnara Qurbanəli qızı Abdurahmanova,***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının baş müəllimi*

# PEDAQOJİ TƏHSİLİN AZƏRBAYCAN TƏHSİL SİSTEMİNDƏ YERİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

***Фиредун Надир оглы Ибрагимов,***
*доктор наук по педагогике, профессор*
*Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

***Гюльнара Гурбанали гызы Абдурахманова,***
*старший преподаватель Шекинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# МЕСТО ПЕДАГОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА И ПУТИ ЕГО УСОВЕРШЕНСТВОВАНИЯ

***Firadun Nadir Ibrahimov,***
*doctor of science in pedagogy, professor*
*Sheki branch of Azerbaijan State Pedagogical University*

***Gulnara Qurbanali Abdurahmanova,***
*senior teacher at Sheki branch of Azerbaijan State Pedagogical University*

# THE PLACE OF PEDAGOGICAL EDUCATION IN THE EDUCATION SYSTEM OF AZERBAIJAN AND WAYS TO IMPROVE IT

**Xülasə:** Məqalədə pedaqoji təhsilin Azərbaycan təhsil sistemində tutduğu yer “sistem-struktur” dialektik yanaşması əsasında şərh olunur, çağdaş dövrdə qloballaşan dünyanın çağırışlarına uyğun olaraq müəllim hazırlığı sisteminin yaradılması modernləşdirmə, müasirləşdirmə mərhələsinə qədəm qoyan Azərbaycanın başlıca hədəflərindən biri kimi dəyərləndirilir, müəllim hazırlığı prosesində yaradıcı mühitin olmasının, gələcək pedaqoqların peşəkar fəaliyyətə baza elementləri əsasında hazırlanmasının vacibliyi əsaslandırılır.

***Açar sözlər:*** *qloballaşan dünyanın çağırışları, peşəkar kompetensiya, səriştəli müəllim hazırlığı, fasiləsiz təhsil, pedaqoji təcrübə, tələbə tədqiqatı.*

**Резюме**: В статье разъясняется роль педагогического образования в системе образования Азербайджана на основе «системно-структурного» диалектического подхода. Создание системы подготовки учителей в соответствии с вызовами глобализирующегося мира считается одной из главных целей Азербайджана, вступившего в стадию модернизации. Обоснована важность наличия творческой среды в процессе подготовки учителей, подготовки будущих учителей на основе основных элементов профессиональной деятельности.

***Ключевые слова:*** *созывы глобализации мира, профессиональная компетенция, подготовка компетентного учителя, непрерывное образование, педагогический опыт, студенческое исследование*

**Summary:** The article explains the role of pedagogical education in the education system of Azerbaijan on the basis of the "system-structural" dialectical approach. The creation of a teacher training

system in accordance with the challenges of the globalizing world is considered one of the main goals of Azerbaijan, which has entered the stage of modernization. In the article importance of the presence of a creative environment in the process of training teachers, training future teachers on the basis of the main elements of professional activity has been substantiated.

***Key words:*** *the challenges of a globalized world, professional competence, preparation of an experienced teacher, continuous education, pedagogical experience, student investigation.*

Pedaqoji təhsilin Azərbaycan təhsil sistemində tutduğu yer "sistem-struktur" dialektik yanaşmasında daha aydın şəkildə anlaşılır. Danılmazdır ki, pedaqoji təhsil təhsil sistemində ehtiva olunur, başqa sözlə, təhsil sistemindən pedaqoji təhsil fikrən ayrıla bilən struktur vahiddir. Azərbaycan Respublikasında təhsilin "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda rəsmiləşdirilmiş "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq" məqsədlərinin reallaşdırılmasında imkandaşıyıcılıq funksiyasına malikdir.

Təqdim etdiyimiz bu mülahizəni "tam-hissə" münasibətləri əsasında arqumentləşdirmək o qədər də çətin məsələ deyildir. Söyləmək yetərli olar ki, tam ilə hissənin qarşılıqlı əlaqəsi öz ifadəsini həm tamın keyfiyyətinin onu təşkil edən hissələrin spesifik təbiətindən asılılıqda, həm də bu hissələrin keyfiyyətinin tamın spesifik təbiətindən asılılıqda tapa bilir. Tamın nisbi bölünməz hissəsi kimi çıxış edən elementlərin və bunların münasibətlərinin dialektik vəhdəti sistem anlayışının əsas əlaməti sayılır. Hissə sistemin təbiətinə daxil olan və nisbi müstəqilliyə malik olan komponentdir, tam-öz aralarında əlaqələnən hissələri əhatə edən və ayrı-ayrı hissələrdə həmişə olmayan bəzi xassələrə malik olan sistemdir.

Prof. S. Xəlilovun aşağıda özünə yer alan mülahizəsi də pedaqoji təhsilin ehtiva olunduğu sistemdə yerini və funksiyalarını dəyərləndirməyə əsas yaradır. O göstərir ki, təhsil öz səviyyə və yönümündən asılı olaraq üç müxtəlif məqsədə xidmət edə bilər.

**Birincisi,** bilik və təcrübə bu və ya digər fəaliyyət sahəsində istifadə olunmaq, praktikada tətbiq edilmək üçün əldə edilir. Həkimlərin, bəstəkarların, mühəndislərin və s. (yaradıcılıq fəaliyyətindən fərqli olaraq hazır bilik və vərdişlərə əsaslanan fəaliyyət) bu qəbildəndir.

**İkincisi,** bilik və təcrübə başqalarına öyrətmək üçün əldə edilir. Müəllimlik sənəti qarşısına heç bir başqa praktik məqsəd qoymadan, yalnız təhsil sisteminin kadrla təmin olunmasına, başqa sözlə, onun öz inkişafına xidmət edir. Fənn müəllimləri əslində fizik, riyaziyyatçı yox, məhz fizika müəllimi, riyaziyyat müəllimi olduğu kimi, müəllim-mühəndis, müəllim-həkim də peşəsinə görə məhz müəllimdir.

**Üçüncüsü,** bilik və təcrübənin səviyyəsini yüksəltmək, yeni biliklər əldə etmək üçün lazım olan fəaliyyət sahəsi-elmi iş də ilkin təhsil mərhələsini tələb edir. Yəni ancaq əvvəlki nəsillərdən miras qalan bilik və təcrübə öyrənildikdən sonra hər bir nəsil öz payını bura əlavə edə bilər. Yeni biliklərin alınması istiqamətində fəaliyyət nəzəri yaradıcılıq-alimlik, yeni təcrübə əldə etmək sahəsində fəaliyyət isə əməli yaradıcılıq (yaradıcı-həkim və ya alim-həkim, ixtiraçı-mühəndis və s.) adlanır. Birinci - bilik və təcrübənin tətbiqinə, ikinci – yayılmasına, üçüncü artırılmasına xidmət edir. Lakin bu fərqlər təhsilin məqsədində və yüksək mərhələsində özünü göstərən fərqlərdir. İlkin mərhələdə isə hər üç istiqamət üst-üstə düşür. Yəni bütün hallarda əvvəlcə keçmiş nəsillərin əldə etdiklərini öyrənmək, mənimsəmək lazımdır. Bu isə sözün dar mənasında, məxsusi mənada təhsildir. Bu mərhələdə təhsil hələ başqa fəaliyyət sahələri ilə çarpazlaşmır və xalis təhsil sahəsi kimi mövcud olur [6, s. 43-51].

Bünövrədə və ilk mərhələlərdə daxili bölgü, şaxələnmə yoxdur. Yalnız məqsədə (müxtəlif məqsədlərə) yaxınlaşdıqca ümumi təhsil

prosesində(*bu pillədə pedaqoji kadrın yeri məlumdur*-F.İ, G.A) şaxələnmə başlanır və getdikcə dərinləşir. Hansı sahə üçün kadr hazırlanmasından asılı olaraq təhsil bu və ya digər ictimai fəaliyyət sahəsi ilə sıx surətdə əlaqələnmiş olur.

Hər bir millətin halı daha dürüst formada onun məktəbində əks olunur. Hüseyn Cavid yazırdı: "Bir millətin hər halını tədqiq etmək üçün ən doğru meyar, kəsdirmə yol o millətin məktəbləridir". Məktəbin siması müəllimdir. Odur ki, müəllim hazırlığı strateji hədəf kimi dəyərləndirilir. Bu, doğru yanaşmadır.

Çağdaş dövrdə qloballaşan dünyanın çağırışlarına uyğun olaraq müəllim hazırlığı sisteminin yaradılması modernləşdirmə, müasirləşdirmə mərhələsinə qədəm qoyan Azərbaycanın başlıca hədəflərindəndir. Hamıya bəlli olan həqiqətdir ki, bütün pedaqoji sistemlərin, ideyaların, təlimdə yeni yanaşmaların mərkəzində müəllim, onun şəxsiyyəti, yaradıcı, təşəbbüskar fəaliyyəti, öz işinə məsuliyyətli münasibəti durur. Təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması, hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşması yüksək biliyə, bacarığa, mükəmməl səriştəyə malik pedaqoji kadrların hazırlanmasını tələb edir [1, s. 239].

Pedaqoji təhsil müasir Azərbaycan təhsil sisteminin mühüm komponenti olmaqla özündə təhsil sisteminin bütün strukturlarının elmi, pedaqoji, psixoloji, metodik və məzmunla bağlı parametrləri birləşdirir. Yalnız pedaqoji təhsil vasitəsilə məqsədyönlü şəkildə təhsil sahəsində keyfiyyətli təhsil işçisi hazırlamaq mümkündür, hansı ki, onların peşəkar kompetensiyalarına, digər təhsil müəssisələrindən fərqli olaraq, birinci növbədə pedaqoji mədəniyyəti daxil etmək lazımdır. Arzuolunan haldır ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ölkəmizdə beynəlxalq standartlara cavab verən təhsil sisteminin inkişaf istiqamətləri, başlıca hədəfləri dəqiq müəyyənləşdirilmiş, təhsil işçiləri qarşısında yeni, məsul vəzifələr qoyulmuşdur [2].

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri ehtiva edir. Dövlətimizin təhsil siyasətinin həyata keçirilməsində, nəzərdə tutulan tədbirlərin reallaşdırılmasında pedaqoji kadrlar mühüm rol oynayır və strategiyada səriştəli müəllim hazırlığı başlıca hədəflərdən biri kimi xüsusi vurğulanır.

Səriştəlilik təhsilverənin nəzəri biliklərə yiyələnməsi ilə məhdudlaşmamaq, praktik bilik və bacarıqlara yiyələnmək və onları praktiki fəaliyyətdə səmərəli tətbiq etmək qabiliyyətidir. Səriştə ali məktəb auditoriyasında mənimsənilən bilik və bacarıqların konkret fəaliyyətin nəticəsinə çevrilməsini, pedaqoji fəaliyyətin yaradıcı, səmərəli şəkildə həyata keçirilməsini təmin edir [3].

Müasir dünyada gedən və həyatımızın bütün sahələrinə təsir göstərən qloballaşma prosesləri müəllim hazırlığı işinə yeni yanaşma tələb edir. Yeni yanaşma-yeni metod və üsulların, mütərəqqi prinsiplərin, müasir texnologiyaların istifadəsi və həyata keçirilməsi üçün yüksək intellektual potensiala malik müəllim kadrlarının hazırlanması müəllim hazırlığı üzrə işin təkmilləşdirilməsi yollarını şərtləndirir. Qənaətimizə görə, yeni yanaşma yeniyetmə gənclərin müəllimlik sənətinə təşviq olunmasına, pedaqoji orta və ali ixtisas məktəblərində həyata keçirilən bütün proseslərə, diplomdansonrakı təhsilə və məktəbdaxili pedaqoji fəaliyyətin təşkili və nizamlanması kimi nisbi fərqləndirilən mərhələlərə sirayət etməlidir.

Subyektiv anlamımıza görə, təhsildə innovasiya problemi günümüzün əsas prioritetlərindəndir. Tələbələrin yaradıcı, istedadlı yetişmələri üçün onların fəaliyyətinin əsas istiqamətləri dövlət və ictimai maraqları müdafiə edən məsələlərə yönəlməlidir. Müəllim hazırlığı prosesində yaradıcı mühitin olması vacibdir. Yaradıcılıq təcrübəsinin subyekti olmayan kəs yaradıcı şəxsiyyətin formalaşdırılması kimi mürəkkəb və məsul funksiyanın imkandaşıyıcısı ola bilməz. İddia edirik ki, pedaqoji ixtisasa yiyələnməkdə olan tələbələrin zehni tərbiyəsinə, fikir fəallığının diqqət mərkəzinə çəkilməsinə, intellektual bacarıqlarının, elmi dünyagörüşlərinin formalaşmasına qayğılı münasibət onların təhsilinin keyfiyyətinə təsir edən mühüm amillər kimi dəyərləndirilməlidir.

Müəllimin peşəkar inkişafı ilə bağlı aşağıdakı istiqamətlər təqdir olunur, hansı ki, biz bu

mülahizəyə tərəfdarıq: nəzəri-elmi biliklərin (fənn üzrə) inkişafı; metodiki biliklərin müasir tələblərə uyğunlaşdırılması; İKT–dən istifadə bacarıqlarının formalaşdırılması; pedaqoji-psixoloji yanaşma bilik və bacarıqları; iki və daha çox xarici dildə ünsiyyət bacarıqları; menecment bilik və bacarıqları [4, s. 243 ].

Müasir dövrdə ali pedaqoji təhsil sistemində bir-birinin əksi olan iki tendensiya müşahidə olunur. Birinci tendensiyada, pedaqoji fəaliyyətin bütün sosial proseslərin infrastrukturuna nüfuz edərək istehsal sahəsi ilə təhsil sistemlərinin qovuşdurulmasının təmin olunması önə çəkilir. İkinci tendensiyaya əsasən pedaqoji təhsilin başlıca məqsədi şəxsiyyətin inkişafına təminat verən şəraitin yaradılmasına cavabdehlik daşımaq, yaranmış mürəkkəb problemlərin inkişaf istiqamətini müəyyən etmək, onun düzgün təşkilini bacaran müəllim kadrlarının hazırlanmasına yönəltməkdir [5, s. 414 ].

Gələcək pedaqoqların peşəkar fəaliyyətə hazırlanması ümumi halda üç baza elementi əsasında təqdim edilməlidir: müəllim təhsil alanı öyrətməyə hazır olmalı, onun intellektual inkişafına cavabdehlik daşımalıdır; müəllim təhsil alanlara verilmiş məzmunun mənimsənilməsini, qavranılmasını, onun, yenidən hasil edərək, təəssüratı və şəxsi kəşfi kimi qəbulunu təmin etməlidir; müəllim təhsil alanlar tərəfindən əldə olunmuş təcrübəni, biliyi və bacarıqları onların mənəviyyatının şəxsi göstəricisi olduğuna inandırmalıdır.

Qeyd olunmuş hərəkətlərin triadası müəllimin peşəkarlıq kompetensiyalarının nüvəsini təşkil edir.

Əldə olunmuş elmi materialların təhlili göstərir ki, pedaqoji təhsilin inkişafı üçün bunların diqqət mərkəzində saxlanılması vacibdir: ümumtəhsil məktəblərində yeniyetmə və gəncləri pedaqoji fəaliyyət sahəsinə yönəldən peşəyönümünün optimal variantlarının seçilməsi və tətbiqi, pedaqoji peşənin motivasiyasının yaxşılaşdırılması; pedaqoji təhsili və fəaliyyəti motivləşdirən dövlət səviyyəli tədbirlərin reallaşdırılması, müəllimin cəmiyyətdə nüfuzunun, ictimai mövqeyinin gücləndirilməsi siyasətinin davamlılığının təmin edilməsi; pedaqoji təhsil müəssisələrinin pedaqoji ali təhsilin məzmununun və texnologiyasının elmi təminatının mərkəzinə çevrilməsi; nəzəri biliklərlə təcrübi biliyin verilməsi prosesinin (istehsalat təcrübəsinin) vahidin tərəfi kimi birləşdirilməsi; pedaqoji təhsil müəssisələrinin tərbiyəetmə, təhsilləndirmə və inkişafı sürətləndirmə problemlərinin həlli mərkəzlərinə çevrilməsi; tələbələrin həm tədris prosesində, həm də asudə vaxtlarının təşkilində onların yaradıcılıq, pedaqoji tədqiqatçılıq təcrübələrinə yiyələnmələrini hədəfləyən mühitin yaradılması; pedaqoji təhsil müəssisələrində arzuolunan təhsil nəticələrinin əldə edilməsini şərtləndirən davamlı, şəffaf, sağlam rəqabətin mövcudluğunun elmi-pedaqoji əsaslarla idarə olunması; pedaqoji təhsil müəssisələrinin müəllimlərin səriştəliliyinin yüksəldilməsi mərkəzinə çevrilməsi; pedaqoji təhsil müəssisələrinin "*məktəb-pedaqoji kollec-ali məktəb*" kimi fasiləsiz təhsilin inkişaf mərkəzinə çevrilməsi; pedaqoji təhsil müəssisələrinin ali pedaqoji təhsilin islahat mərkəzinə çevrilməsi; pedaqoji təhsil müəssisələrinin sosial işin təşkili mərkəzinə çevrilməsi; pedaqoji təhsil müəssisələrinin təhsilin keyfiyyətinin idarə olunmasının elmi təminatının mərkəzinə çevrilməsi; pedaqoji təhsilin fasiləsizliyinin, diplomdan sonrakı təhsilin pedaqoji kadrların və məktəbin tələbatına uyğunluğunun təmin olunması; pedaqoji təhsilin ümumtəhsilin həyatakeçirilmə fəlsəfəsinə uyğunluğunun gözlənilməsi; müəllimin pedaqoji fəaliyyəti zamanı onu davamlı şəkildə elmi-nəzəri, pedaqoji, ideya-siyasi, təcrübi hazırlığa təhrik edən mühitin yaradılması; müəllimin hazırlıq səviyyəsinə-səriştəliliyinə uyğun diferensial əmək haqqının ödənilməsi mexanizmindən istifadə edilməsi. Fikrimizcə, sadalananlar müəllim hazırlığının təkmilləşdirilməsi yolları kimi də qəbul oluna bilər.

***Problemin elmi yeniliyi.*** Pedaqoji təhsilin "sistem-struktur" dialektik yanaşma əsasında dərk olunması və qurulması onun ölkədə təhsilin ümumi inkişaf ahənginə uyğunluğunu şərtləndirir.

***Problemin praktik əhəmiyyəti.*** Pedaqoji təhsilin "sistem-struktur" dialektik yanaşma əsasında dərk olunması onun təşkilində və idarə olunmasında yol verilə biləcək yanlışlıqların başvermə risklərini azaldır.

***Nəticə.*** Ölkəmizdə təhsil siyasətinin əsas istiqamətləri və prinsipləri nəzərə alınaraq, müəllim kadrlarının hazırlanmasını təmin edən müasir tədris-təlim prosesinin elmi əsaslarla yenidən qurulmasında xeyli işlər görülmüşdür və pedaqoji təhsil sisteminin inkişafı ilə bağlı aşağıdakı məqsədlərin həyata keçirilməsi elmi nəzəri, pedaqoji və metodik cəhətdən əsaslandırılmışdır: pedaqoji təhsilin keyfiyyətinin yüksəldilməsi; müasir beynəlxalq təcrübə və milli ə-

nənələr əsasında onun məzmununun və strukturunun yeniləşdirilməsi; peşə təlimi və tərbiyənin vahidliyinin, pedaqoji təhsil sistemində dövlət, ictimai və şəxsi prioritetlərin tarazlığının təmin edilməsi; qazanılmış nəzəri biliklərin təlim-tərbiyə müəssisələrində tətbiqi və müəllim peşəsi ilə bağlı tələb olunan kompetensiyaların əldə edilməsi üçün pedaqoji təcrübələrin yeni modelinin hazırlanması.

**Ədəbiyyat**

1. A.Q. Mehdiyeva. Müəllim hazırlığının müasir problemləri .“Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf” mövzusunda III beynəlxalq elmi konfransının materialları. Bakı: Müəllim, 2014.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli fərmanı ilə təsdiq olunmuşdur).

3. A.H. Nəzərova. Yaradıcı mühit ali məktəb təhsilinin keyfiyyətinə təsir edən amil kimi. “Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf” mövzusunda III beynəlxalq elmi konfransının materialları. Bakı: Müəllim, 2014.

4. V.T. Hüseynova. Müəllimlərin peşəkarlığının inkişaf etdirilməsində müasir yanaşmalar. “Müəllim hazırlığının müasir problemləri: texnologiya, təhsil və inkişaf” mövzusunda III beynəlxalq elmi konfransının materialları. Bakı: “Müəllim, 2014.

5. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 s.

6. S.S. Xəlilov. Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, 2005.

**E-mail**: firedun ibrahimov@ gmail.com
gulnara_adpusheki@mail.ru

**Rəyçilər*:*** *dos.* **G.A. Abdullayeva**
*dos.* **S.R.Bədiyev**

**Redaksiyaya daxil olub**: 04.02.2021